Ən çox oxunan qəzet

❒ № 40 (4735), 2018-ci il

Qiyməti 30 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qəzet 1996-cı il noyabrın 1-dən çıxır

www.sherg.az

1 mart
(cümə axşamı)

## Zaqatalada 4-cü sinif şagirdi özünü asdı



**Zaqatalada 4-cü sinif şagirdi intihar edib. APA-nın Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə dünən axşam saat 19:30 radələrində rayonun Muxax kəndində baş verib.**

Kənd sakini, 2007-ci il təvəllüdlü Hafiz Nazim oğlu Məmmədovun meyiti yaşadığı evin həyətyanı sahəsində inşa edilmiş təndirxanada asılı vəziyyətdə özündən böyük qardaşı tərəfindən aşkar edilib.

(Səh.9)

## Tiflisdə faciə...

Üzərinə pəncərə düşən azərbaycanlı uşaq öldü



**Tbilisinin Barataşvili küçəsində üzərinə pəncərə şüşəsi düşən və daha sonra xəstəxanada ölən uşağın azərbaycanlı, 14 yaşlı Aslan Məmmədov olduğu açıqlanıb.**

Uşağın şəxsiyyəti Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilinin başsağlığı mesajında qeyd olunub.

(Səh.8)

# İmtahan qiymətləri ilə bağlı Tarif Şurasına müraciət ediləcək




Gələn il qəbul imtahanlarında yeni model tətbiq olunacaq

**"İmtahanlara sərf olunan maliyyə vəsaiti və digər məsələlər tərəfimizdən əsaslandırılaraq təkliflər hazırlanacaq".** Bunu Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə deyib. Onun sözlərinə görə, yeni təkliflər gələn il Tarif Şurasına təqdim ediləcək.

(Səh.2)



## Azərbaycanda minlərlə insanın əməkhaqqı artırıldı

**Prezident İlham Əliyev Təhsil müəssisələrində çalışan işçilərin əmək haqlarının artırılması haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində (ali təhsil müəssisələri istisna olmaqla) çalışan işçilərin aylıq vəzifə maaşları martın 1-dən orta hesabla 10 faiz artırılıb.

(Səh.2)

## Nadir Azərbaycan xalçaları barədə kataloq hazırlanacaq



**Ölkə daxilində və xaricdə muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalçaları barədə kataloq hazırlanacaq.**

Bu, Azərbaycan prezidenti İlham Əliyevin dünən imzaladığı sərəncamla təsdiq edilən "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nda əksini tapıb.

(Səh.2)

Günün içindən ● Günün içindən | Günün içindən ● Günün içindən



## 15 günə 30 lari...

Gürcüstana avtomobillə gedənlərdən sığorta tələb olunacaq

**Mart ayının 1-dən etibarən Gürcüstana 15 gündən az olmayan müddətə avtonəqliyyat vasitəsi ilə daxil olan xarici vətəndaşlardan avtomobil sığortası tələb olunacaq.**

APA-nın Gürcüstan bürosunun məlumatına əsasən, qüvvəyə minəcək yeni qaydalara əsasən, sığortanı nəzarət-buraxılış məntəqələrində əldə etmək mümkündür.

(Səh.6)

# "Rahat uyu, Cənab general"



"Şərq"çilər Cümhuriyyətçi general Əliağa Şıxlinskinin məzarını ziyarət edib

(Səh.5)